# Siyasi iradə, məqsədyönlü islahatlar, davamlı inkişaf

**Azərbaycan Prezidenti İlham Əliyevin siyasi kursunun çox mühüm istiqamətlərindən birini davamlı struktur və institusional islahatların aparılması təşkil edir. Bu, həm milli maraqlara əsaslanır, həm də müasir çağırışlara adekvatdır. Ümumiyyətlə, Azərbaycanın yaratdığı reallıqlar iqtisadi, sosial və inzibati idarəetmə sahəsində mühüm addımların atılmasını zəruri edir. 2018-ci ilin aprelində prezident seçkilərində yenidən xalqın etimadını qazanan dövlətimizin başçısı İlham Əliyev andiçmə mərasimində ölkə həyatının bütün sahələrini əhatə edəcək dərin islahatların, yeni siyasi konfiqurasiyanın anonsunu vermişdi. Ötən dörd il ərzində Azərbaycan böyük inkişaf yolu keçmiş, idarəetmədə mühüm yeniliklər baş vermiş, bununla yanaşı, inqilabi səciyyə daşıyan islahatlar konsepsiyasına, zamanın çağırışlarından irəli gələn kadr siyasətinə və uğurları şərtləndirən başqa göstəricilərə nail olunmuşdur.**

*Struktur islahatları, siyasi, iqtisadi islahatlar, məsuliyyətin gücləndirilməsi ilə bağlı tədbirlər, şəffaflıq - bütün bunlar hamısı ölkəyə böyük faydalar gətirir, həm siyasi, həm də iqtisadi.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**




Ölkəmizdə dövlət idarəçiliyinin təkmilləşdirilməsi məqsədilə həyata keçirilən struktur islahatları əslində indiyə qədər həyata keçirilən dərin hüquqi və institusional islahatların davamı kimi xarakterizə edilməlidir. Azərbaycan dinamik və hərtərəfli inkişaf edən ölkədir və bu inkişaf daha çevik struktura malik olan optimal idarəetmə tələb edir. Məqsəd əldə edilən nailiyyətlərin davamlılığını təmin etməklə, gələcək üçün daha səmərəli şərtlər formalaşdırmaqdır. Ona görə də, bir-biri ilə paralel olan, yaxud səmərəliliyi arzu edilən səviyyədən aşağı olan struktur vahidlərinin ləğv edilməsi, birləşdirilməsi və ya daha çevik mexanizmlərlə əvəzlənməsi idarəetmənin aktual tələbi kimi meydana çıxır. Prezident İlham Əliyevin Fərmanı ilə həyata keçirilən struktur islahatları da məhz bu sahənin tənzimlənməsini təmin etmək məqsədi daşıyır. Həyata keçirilən islahatlar idarəetmənin optimallaşdırılması ilə yanaşı, onun səmərəliliyini də artıraraq davamlı hal almışdır.

Azərbaycanda uğurlu inkişaf siyasəti bütün sahələrdə nailiyyətlər əldə edilməsinə zəmin yaradır. Dövlətimizin başçısının həyata keçirdiyi uğurlu gənclər siyasəti kadr və institusional islahatlar zamanı da diqqətdə saxlanılır. Dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi istiqamətində atılan addımlar zamanı, ilk növbədə, xalqın və dövlətin maraqları, milli mənafelər nəzərə alınır. Dövlət idarəetmə sistemində son illər həyata keçirilən struktur islahatları çərçivəsində gənc kadrların rəhbər vəzifələrə irəli çəkilməsi rəğbətlə qarşılanır və müsbət nəticələr verir. Bu, ölkənin inkişafında gənclərə olan böyük inamın və etibarın təzahürüdür. Azərbaycan Prezidenti tərəfindən son dövrlərdə aparılan struktur və kadr islahatları iqtisadiyyatımızın güclənməsinə, regionların sosial-iqtisadi inkişafının daha da sürətlənməsinə yol açır. Prezident İlham Əliyev bütün kadrlara, o cümlədən məmurlara yüksək tələbkarlıq və prinsipiallıqla yanaşır. Dövlətimizin başçısı vəzifəyə yeni təyin etdiyi kadrların qarşısında məsələni belə qoyur: ümumi idarəetmə işləri müasir standartlara uyğunlaşdırılmalı, şəhər və rayonlarda, ilk növbədə, iqtisadi inkişafa nail olunmalı, məşğulluq problemləri həllini tapmalıdır. Əsas tələblərdən biri də xalqın xidmətçisi olmaq, vətəndaşlarla təmas platformasını genişləndirməkdir. Bu gün istər idarəetmə sahəsində, istərsə də sosial-iqtisadi, elmi-mədəni və ictimai həyatda gənc kadrların aparıcı rol oynaması ölkəmizin inkişafının təmin olunması baxımından strateji əhəmiyyət kəsb edir.

**Həyata keçirilən struktur dəyişiklikləri idarəetmənin optimallaşdırılması ilə yanaşı, onun səmərəliliyini də artırır**

Dövlət başçısının iqtisadiyyatın liberallaşdırılması istiqamətində atdığı addımlar ən islahatçı ölkə kimi nüfuzu artan Azərbaycanın gələcək yüksəlişi üçün güclü baza formalaşdırır. Bu islahatlarla vergi, gömrük sistemindəki yeniliklər, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması ilə bağlı vergi sistemində edilən dəyişikliklər, kölgə iqtisadiyyatına qarşı mübarizənin gücləndirilməsi, o cümlədən mikro və kiçik sahibkarlıq subyektləri üçün yeni vergi güzəştlərinin tətbiqi həyata keçirildi ki, bu da sahibkarların vergi güzəştlərindən istifadə imkanlarının genişləndirilməsinə şərait yaratdı. Beynəlxalq reytinq təşkilatları, maliyyə qurumlarının hesabatlarında 2020-ci və 2021-ci illər üçün Azərbaycanın 3 faizdən çox iqtisadi artıma nail olacağı proqnozlaşdırılırdı. Bu da təbii ki, iqtisadi artım tempinin yüksəlməsi demək idi. Yəni cənab İlham Əliyevin islahatları nəticə etibarilə qarşıdakı illər üçün Azərbaycana iqtisadi inkişaf baxımından yeni imkanlar yaratdı. Əldə edilən bu imkanlar bütün sahələrdə dəyişikliklərin baş verməsini təmin etdi və inkişafla bağlı müsbət dinamikanı şərtləndirdi. Ümumiyyətlə, son 19 il ərzində cənab İlham Əliyevin həyata keçirdiyi islahatlar, ilk növbədə, iqtisadiyyatın səmərəliliyinin daha da artırılması məqsədlərinə xidmət etmişdir. Bu istiqamətdə ölkədə institusional və tənzimləyici çərçivə təkmilləşdirilmiş, milli iqtisadiyyatın özəyi olan təsərrüfat strukturlarında idarəetmənin sağlam prinsiplər əsasında inkişafı və tam şəffaflaşması üçün möhkəm zəmin yaradılmışdır.

Aparılan məqsədyönlü islahatlar nəticəsində digər sahələr kimi, aqrar sahə də özünün dinamik inkişafı ilə mövcud çağırışlara cavab verərək keyfiyyətcə yeni mərhələyə daxil olub. Dövlət başçısının qəbul etdiyi qərarlar sayəsində aqrar sahənin inkişafı ilə bağlı işlər görülür, bu sahəyə dövlət dəstəyi gücləndirilir. Güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar, texnika verilir. Azərbaycan bu sahədə dünya miqyasında fermerlərə dəstək baxımından ən qabaqcıl ölkələrdən biridir. Bu istiqamətlərdən biri idarəetmə sistemində çevikliyin və səmərəliliyin artırılmasıdır. Bu çərçivədə Kənd Təsərrüfatı Nazirliyinin rayon bölmələri inzibati strukturdan xidmət qurumları olan Dövlət Aqrar İnkişaf Mərkəzlərinə (DAİM) çevriliblər. DAİM-lərdə "vahid pəncərə" prinsipinə uyğun olaraq fermerlərə 70-ə yaxın xidmət göstərilir. Fermerlərin qayğı və problemlərini daha yaxından dinləmək üçün bütün rayonlarda və nazirliyin aparatında Fermerlər Şuraları aqrar sahədə 11 assosiasiya yaradılıb. Aqrar Könüllülər Hərəkatı formalaşdırılıb. Dövlət dəstəyinin fermerlər üçün daha əlçatan olması, subsidiyaların verilməsində şəffaflığı və çevikliyi təmin etmək üçün Elektron Kənd Təsərrüfatı Sisteminin yaradılması, fermerlərin resurs və xidmətlərlə təminatının daha da yaxşılaşdırılması, yerli istehsal potensialının daha da gücləndirilməsi bu sahədə əsas prioritetlərdəndir. Hazırda müvafiq xidmətlər və təchizat üzrə bazanın daha da gücləndirilməsi hesabına taxıl və pambıq istehsalı üzrə məhsuldarlığın yüksəldilməsi, eyni zamanda istehsal həcminin artırılması üçün zəruri tədbirlər görülür. Həmçinin yeni meyvə bağlarının salınması, o cümlədən fındıq, badam, qoz və zeytun bağlarının genişləndirilməsi də vacib məsələlərdəndir. Heyvandarlıq sahəsində istehsal potensialının gücləndirilməsinin əsas vasitəsi kimi intensiv ferma modelinin genişləndirilməsi bu sahə üzrə dövlət siyasətinin əsas istiqamətidir. Ən vacib prioritet istiqamətlərdən biri də aqrar sahədə innovasiyaların daha geniş tətbiqinə nail olunmasıdır. Aqrar innovasiyalar hər zaman bütün dünyada ərzaq təhlükəsizliyinin təmin olunması üçün ən böyük vasitədir.

İqtisadiyyatın bir çox sahələrində olduğu kimi, turizm sahəsində də bir sıra irəliləyişlər müşahidə olunur. Azərbaycan bu sahədə kifayət qədər geniş perspektivlərə malik olan ölkə hesab olunur. Turizmin inkişafında mühüm addımlardan biri Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" hesab oluna bilər. Bu mühüm sənəddə ilk əvvəl 2020-ci, daha sonra isə 2025-ci ilə qədər turizmlə bağlı hədəflər (ümumilikdə 4 hədəf), prioritetlər və tədbirlər müəyyən olunub. Son illər dövlət səviyyəsində Azərbaycan turizminə göstərilən diqqətin bariz nümunəsi Prezident İlham Əliyevin 2018-ci il 20 aprel tarixli "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam"ına əsasən Azərbaycan Dövlət Turizm Agentliyinin yaradılması olub. Agentlik turizm sahəsində vahid dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, turizm sahəsində normayaratma fəaliyyətinin icrası, dövlət tənzimləməsi, dövlət nəzarəti və əlaqələndirmə, turizmin inkişafı məqsədilə digər dövlət orqanları, müəssisələri və təşkilatları, habelə fiziki və hüquqi şəxslər, o cümlədən beynəlxalq və qeyri-hökumət təşkilatları arasında əlaqəli fəaliyyəti təmin etmək, qoruqların ərazilərindən məqsədyönlü istifadəni təşkil etmək istiqamətlərdə fəaliyyət göstərir. Agentlik tərəfindən 2023-cü ilə kimi regional turizmlə bağlı inkişaf strategiyasının hazırlanması, Azərbaycanın bölgələrdə Dövlət Turizm Agentliyinin və Azərbaycan Turizm Bürosunun yeni inzibati strukturunun yaradılması da daxil olmaqla mühüm işlər davam etdirilir. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etmək məqsədilə Prezident İlham Əliyev tərəfindən iqtisadi rayonların yeni bölgüsü həyata keçirilərək Qarabağ (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) iqtisadi rayonları yaradılıb. Bu iqtisadi rayonların təbii ehtiyatları, təbii gözəllikləri, tarixi abidələri gələcəkdə bu ərazidə turizmin bir çox növlərini inkişaf etdirmək imkanı verəcək. Bu bölgəyə bir çox turizm marşrutlarının hazırlanması və həyata keçirilməsi nəzərdə tutulub. Eyni zamanda, gələcəkdə bölgədə yerləşən bir çox dini abidələrin bərpası burada dini turizmin inkişafına da təkan verəcək.

**Mustafa KAMAL,**
**"Respublika".**